## Vasif Süleyman

### Gəlib-Gedirsən

Hər gün ürəyimdən gəlib-gedirsən,
Yaxşı yol tapmısan gəlib-getməyə.
Elə yaxşısını sən eyliyirsən,
Qorxuram başqası gələ, getməyə.

Birdən səsə düşər, qulağın səsə,
Dinlə bu sözləri bir yalan kimi.
Hələ harasıdı ürəyim üstə,
Dünyanı gəzəcən Magellan kimi.

Elə sənsizlikmiş ümid-pənahım,
Hər şeyi yazıram qəmin boynuna.
Heç qübar eyləmə mənim səyyahım,
Dəmir çarığın da mənim boynuma.

Tələsmə yollarda astaca, aram,
Gör neçə gecəmiz, səhərimiz var.
İndidən deməyə biraz qorxuram,
Hələ o dünyaya səfərimiz var.

Tələsmə, adına biçilib bu yol,
Tələsmə, bu yolla tən gedənin yox.
Mənim ürəyimdə sən arxayın ol,
Qapıdan çıxanda ləngidənim yox.

Bu yol nə uzundur, nədə ki qısa,
Bu yol ömür ilə ölüm arası.
Qəlbimə yol saldın, amma hardasa,
Yolunu gözləyir kimsə, qadası.

Hər gün ürəyimdən gəlib-gedirsən,
Yaxşı yol tapmısan gəlib-getməyə.
Elə yaxşısını sən eyliyirsən,
Qorxuram başqası gələ, getməyə.